# Bakıda "Vyetnam günləri" keçirilib

Vyetnam lideri Ho Şi Minin Azərbaycana səfərinin 65 illik yubileyi ilə əlaqədar Bakıda "Vyetnam günləri" çərçivəsində Azərbaycan və Vyetnamın aidiyyəti qurumlarının təşkilatçılığı və iştirakı ilə çoxsaylı tədbirlər təşkil olunub.

"Vyetnam günləri"ndə iştirak məqsədilə Azərbaycan Respublikası Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) dəstəyi ilə Bakıya səfər edən Vyetnam nümayəndə heyətinin üzvləri Heydər Əliyev Mərkəzi ilə tanış olub, Ulu Öndər Heydər Əliyevin 1983-cü ildə Vyetnama tarixi səfərini əks etdirən arxiv fotoşəkillərini mərkəzə təqdim ediblər.

KOBİA və Vyetnamın Milli Sahibkarlıq Assosiasiyası (ViNen) arasında tərəfdaşlıq əsasında hər iki ölkənin sahibkarlarının iştirakı ilə biznes-forum keçirilib, müvafiq əməkdaşlıq sənədləri imzalanıb. Forumda çıxış edən ölkəmizin Vyetnamdakı səfiri Şövqi Mehdizadə 65 il öncə baş tutmuş səfərin tarixi əhəmiyyətini vurğulayaraq, iki xalqın liderləri - Heydər Əliyev və Ho Şi Min tərəfindən əsası qo-



yulmuş tarixi dostluq və əməkdaşlıq əlaqələrinin bu gün də uğurla inkişaf etdiyini bildirib.

azerbaijan-news.az

Azərbaycan.- 2024.- 3 avqust, (№ 163).- S.10.